# “İNVEST-AZ İNVESTİSİYA ŞİRKƏTİ” QSC-nin STRATEJİ BAXIŞ VƏ MİSSİYA BƏYANATI

**Cəmiyyətin strateji baxışı:**

- Cəmiyyət investisiya fəaliyyəti göstərərək yatırımçılarının ehtiyaclarını öz üstünlükləri ilə qarşılamağı əsas məqsəd olaraq seçmişdir;
- Cəmiyyət üstün texnologiya ilə yatırımçılarına effektiv dəstək verir;
- Cəmiyyətin əsas hədəf kütləsinini yatırım edərək qazanmaq istəyən fiziki və hüquqi şəxslər təşkil edir;
- Cəmiyyət olaraq müştərilərimizə əsas və yardımçı investisiya xidmətlərini təklif edirik;
- Cəmiyyət Azərbaycanın maliyyə bazarına yeniliklər gətirərək, A-dan Z-yə investisiya həlləri təqdim edən etibarlı tərəfdaş kimi tanınır.
- Cəmiyyətin "Adımız güvənimizdir" şüarı bazarda qazandığı etibarı əks etdirir və bu etibar üzərində qurulan müştəri bazası ildən-ilə genişlənməkdədir.
- Bu Strateji Baxış Cəmiyyətin korporativ idarəetməsində strateji vəzifə və hədəflərin müəyyən olunması əsası kimi çıxış edir.

**Cəmiyyətin missiya bəyanatı:**

- Xaricdə fəaliyyət göstərən qabaqcıl investisiya şirkətlərinin təcrübələrini yerli bazarda tətbiq etmək;
- Müştərilər qarşısında öhdəliklərin tam yerinə yetirilməsi məqsədi ilə kifayət qədər ehtiyat fondu formalaşdırmaq;
- Kiçik və Orta Sahibkarlıq subyektlərinin Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynamasına şərait yaratmaq üçün əlverişli maliyyə alətlərinə çıxış imkanı yaratmaq;
- Ölkənin maliyyə bazarlarının inkişafına töhfə vermək;
- Təqdim ediləcək məhsul çeşidini diversifikasiya etmək;
- Mövcud işçilərin bilik səviyyələrinin artırılması məqsədilə davamlı təlimlərin keçirilməsini təmin etmək;
- Cəmiyyətin fəaliyyətini yeni texnologiyalardan (süni intellekt- AI) istifadə edilmək şərtilə daha da təkmilləşdirmək;
- Maliyyə bazarlarını hamı üçün daha əlçatan və anlaşılan etmək;
- "Yatırım dünyasının qaydalarını yenidən formalaşdırırıq" prinsipi ilə hər kəsin investor olma potensialını reallaşdırmasına şərait yaratmaq. Bu məqsədlə müştərilərə sadə, təhlükəsiz və müasir investisiya platformaları təqdim etmək və eyni zamanda onların maliyyə biliklərini artırmaqda dəstək göstərmək;
- Müştəri yönümlülük, innovasiya və etibarlılığın Cəmiyyətin əsas dəyərləri qismində çıxış etməsi və missiyasının ayrılmaz hissəsi olması;
- Ölkədə maliyyə savadlılığının artırılması və kapital bazarının inkişafına töhfə vermək kimi sosial missiyanın həyata keçirilməsi.